*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2024, № 1* *ISSN: 2663-2926*
*Səhifə: 121-130* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2024.1.121*

# Molla Cümə əsərlərinin janr xüsusiyyətləri

**Novruz Bəkirov**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu
E-mail: bekirov.novruz@mail.ru

**Annotasiya.** Molla Cümə Azərbaycanın klassik aşıq-şairlərindəndir. Onun əsərlərinin janr və xüsusiyyətləri tədqiq edilərkən, forma və məzmunca müxtəlifliyi diqqəti cəlb etməkdədir. Şairin əsərləri sadə dildə yazılmış, oxunaqlı və yaddaqalandır. Onun əsərlərində xalqımızın milli duyum və düşüncə tərzi görünməkdədir. Şair özü aşıqlıq etdiyindən digər aşıqların əsərləri ilə bərabər, öz əsərlərini də məclislərdə ifa edərdi. O, klassik ənənəyə bağlı aşıq sənətinin qədimliyini, saz və söz vəhdətini özündə yaşadan, əsrlərlə cilalanıb təkmilləşən əsərlər yaratmışdır. Sənətkar əsərlərini öz əli ilə yazıya alan ilk aşıqlarımızdandır. Şair yazıya aldığı əsərlərini əlyazmaları vasitəsilə xalqa ötürə bilmişdir.
Molla Cümənin bayatı, qoşma, divani, müxəmməs, təcnis, təxmis, deyişmə və sair formada yaratdığı qiymətli əsərləri dövrümüzdə də aktuallığında qalmaqdadır. Bundan başqa, şairin yaratdığı həcvlər, gözəlləmələr, deyişmələr, dodaqdəyməz və bu qəbildən yazılmış digər əsərləri xüsusilə diqqəti cəlb edir. Şair gəraylı, divani, müxəmməs, müsəddəs, mürəbbə, tərcibənd, zəncirləmə, dübeyti, misal, deyişmə və sair əsərlər yaratmışdır ki, bütün bunlar bir daha şairin əsərlərinin janr etibarilə müxtəlifliyi və zənginliyinin göstəricisidir.
Molla Cümə yaşadığı dövrün tələbi ilə məclislərdə və el şənliklərində tez-tez çıxışlar edərdi. Mövcud vəziyyətə uyğun olaraq, şair dastan yaratmağa meyilli olmuş və bu sahədə də uğurlar əldə edə bilmişdir. Şairin on dastanı bizə məlumdur ki, onlardan beşi tərəfimizdən aşkar edilmişdir.
Məqalədə Molla Cümə yaradıcılığının janr və xüsusiyyətlərinə diqqət edilmiş, yaradıcılığı geniş təhlil edilmişdir.
**Açar sözlər:** Molla Cümə, janr və xüsusiyyət, qoşma, dastan, gəraylı

**Məqalə tarixçəsi:** göndərilib – 13.05.2024; qəbul edilib – 24.05.2024

# Genre characteristics of Molla Juma's works

**Novruz Bakirov**
Doctor of Philosophy in Philology
Institute of Manuscripts named after Muhammad Fuzuli of ANAS
E-mail: bekirov.novruz@mail.ru

**Abstract.** Molla Juma is one of the classic ashug poets of Azerbaijan. While studying the genre and features of his works, the diversity of form and content attracts attention. The poet wrote his works in simple, readable and memorable language. The national feeling and way of thinking of our people can be seen in his works. Since the poet himself was in ashug, he would perform his own works in gatherings along with the works of other ashugs. He has created works with a rich

tradition, which keep alive the antiquity of Ashug art related to the classical tradition, the unity of music and words, and have been refined and improved over the centuries. The artist is one of our first ashugs who recorded his works with his own hands. The poet was able to transmit his written works to the people through his manuscripts.
The precious works created by Molla Juma in the form of bayati, goshma, diwani, mukhammas, tajnis, takhmis, debating and others remain relevant even in our time. Apart from that, the poet's hajvs, beautifications, dialogues, and other works of this kind are particularly noteworthy. In addition, the poet created works such as garayli, diwani, mukhammas, mukhammas, mujaddas, murabba, tarjibband, dubeyti, sample, debating and other works, all of which once again indicate the diversity and richness of the poet's works.
Molla Juma would often give speeches at gatherings and parties as required by the times he lived in. According to the current situation, the poet was inclined to create an epic and was able to achieve success in this field as well. Ten epics of the poet are known to us, five of them have been discovered by us.
In the article, attention was paid to the genres and features of Molla Juma's creativity, and his creativity was analyzed in a broad form.
**Keywords:** Molla Juma, genre and feature, couplet, saga, garayli

**Article history:** received – 13.05.2024; accepted − 24.05.2024

## Giriş / *Introduction*

Azərbaycan aşıq sənətinin vacib qollarından birini təşkil edən, özünəməxsus ənənəsi, yaradıcılıq çalarları, tarixi inkişaf yolu olan Şəki aşıq mühiti coğrafi mövqeyi, ifaçı və dinləyicilərin etnik-mədəni tərkibi baxımından böyük maraq doğurur. Bu da, öz növbəsində, şairin ədəbi yaradıcılığı və ustad aşıq kimi fəaliyyətinin ətraflı öyrənilməsinə, bütövlükdə, aşıq ədəbiyyatımızın araşdırılması sahəsində xüsusi əhəmiyyət kəsb edir.

Molla Cümə yaradıcılığının belə bir mühitdə formalaşması, digər həmkarlarından ideya-estetik, sənətkarlıq xüsusiyyətləri ilə oxşar və fərqli cəhətləri olmasına zəmin yaratmışdır. Ustad Aşıq Molla Cümə özündən sonra da aşıqlar, el şairləri yetişdirmişdir.

Molla Cümə bir sıra səciyyəvi xüsusiyyətləri ilə seçilən Şəki aşıq mühitinin görkəmli nümayəndəsidir. O, eyni zamanda xalqlar dostluğunun nəğməkarı, məhəbbət tərənnümçüsü kimi tanınan və sevilən söz ustasıdır. Şairin yaradıcılığı XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərinə təsadüf edir. Onun əsərlərinin forma və məzmun baxımından zəngin olması və müxtəlifliyi həmin əsərlərin janr və xüsusiyyətlərinin araşdırılması üçün zəmin yaradır.

Molla Cümə əsərlərinin, sadəcə, lokal deyil, həm də regional kontekstdə öyrənilməsi, janr və xüsusiyyətləri barədə məlumatlar məqalənin əsas hissəsində öz əksini tapmışdır.

## Əsas hissə / *Main part*

Molla Cümə yaradıcılığının janr xüsusiyyətlərini tədqiq edərkən onun yaşadığı dövr, tarixilik nəzərə alınmışdır. Burada xalqımızın milli duyum və düşüncə tərzi, saz və söz vəhdəti, klassik ənənəyə bağlı aşıq sənətinin qədimliyi və zəngin ənənəyə malik olması nəzərə alınmışdır.

Yüzilliklər keçdikcə nəsildən-nəslə ötürülərək günümüzədək gəlib çıxan bu sənət xalqın ruhunu, zövqünü oxşayır, dövrün ictimai-siyasi ab-havasını özündə əks etdirir. Aşıq ədəbiyyatı hər zaman xalqın həyatı ilə sıx bağlı olmuş, dövr keçdikcə zənginləşmiş və kamilləşmişdir. Bu baxımdan Azərbaycan aşıq sənətinin vacib qollarından birini təşkil edən, özünəməxsus ənənəsi,

yaradıcılıq çalarları, tarixi inkişaf yolu olan Şəki aşıq mühiti də coğrafi mövqeyi, eyni zamanda, ifaçı və dinləyicilərin etnik-mədəni tərkibi baxımından böyük maraq doğurur. Bu da, öz növbəsində, onun ətraflı öyrənilməsi və bütövlükdə aşıq ədəbiyyatımızın araşdırılması baxımından xüsusi əhəmiyyət kəsb edir. Belə bir mühitdə yaradıcılıqları, ideya-estetik, sənətkarlıq xüsusiyyətləri ilə bir-birindən fərqlənən ustad aşıqlar və el şairləri yetişmişdir. Bu kimi bir sıra səciyyəvi xüsusiyyətləri ilə seçilən Şəki aşıq mühitinin görkəmli nümayəndələrindən biri də Molla Cümədir. Şairin yaradıcılığı XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərinə təsadüf edir [1, s.73-82].

Forma və məzmun baxımından özündən sonrakı nəsillərə zəngin ədəbi irs qoyan klassik şair, ustad aşıq Molla Cümə yaradıcılığının sadəcə lokal deyil, həm də regional kontekstdə öyrənilməsi məqsədəuyğundur. Şairin yaradıcılığının öyrənilməsi həm də mətnşünaslıq nöqteyi-nəzərdən də aktualdır. Çünki şifahi xalq yaradıcılığı forması olaraq aşıq şeiri, əsasən, dialektlərdə yazılmış və müxtəlif şəxslər tərəfindən yazıya köçürülmüşdür. Bu zaman yol verilən təhriflər bəzən şeirlərin anlam bütünlüyünü pozmuş, çoxvariantlılığa gətirib çıxarmışdır. Molla Cümə şeirləri də buna bir örnəkdir. Bu baxımdan digər sənətkarlar kimi, onun da yaradıcılığının müxtəlif istiqamətlərdə təhlili və fərdi şəkildə tədqiqi bütövlükdə dövrün mədəni mühitinin öyrənilməsi üçün zəruridir [2, s.173; 3, s.158].

XX əsr Azərbaycan ədəbiyyatı şifahi dildən toplanaraq tədqiq edilmiş və şifahi xalq ədəbiyyatı kimi formalaşmışdır. Burada aşıq yaradıcılığına da xüsusi önəm verilmişdir. Bu sahədə bir çox tədqiqatçılar tərəfindən ustad aşıq, şair Molla Cümənin həyatı və yaradıcılığının öyrənilməsi xüsusi maraq kəsb etmişdir. Onun əsərləri tədqiqatçılar tərəfindən şifahi dildən toplanaraq ictimailəşdirilmişdir. Molla Cümənin əsərləri çox sayda dəyərli tədqiqatçılarımız tərəfindən aşkar edilərək nəşrləri təşkil olunmuş və gələcək nəsillərə ötürülmüşdür. Molla Cümə yaradıcılığı ilə məşğul olmuş bir çox tədqiqatçılar şairin zəngin yaradıcılığını tədqiq edərkən onun müxtəlif ədəbi janrlarda mükəmməl əsərlər yaratdığını ortaya çıxarmışlar.

Molla Cümənin yaratdığı əsərlərin janr və müxtəlifliyi diqqəti cəlb etməkdədir. O, xalq tərəfindən qəbul edilən çox zəngin, müxtəlif məzmunlu şeir və dastanlar yarada bilmişdir. Onlardan: həcvlər, gözəlləmələr, dastan, deyişmə, dodaqdəyməz, gəraylı, qoşma, divani, müxəmməs, müsəddəs, mürəbeə, tərcibənd, zəncirləmə, dübeyti, misal, bayatı, təcnis, təxmis və başqalarını göstərə bilərik. Forma və janr etibarilə Molla Cümə əsərlərinin bir sıra fərqli xüsusiyyətlərini görə bilərik. Şairin eyni şeirlərinin müxtəlif variantlarının mövcudluğu həm də onların tekstoloji tədqiqini şərtləndirən amillərdəndir.

Şairin tədqiqatçılarının əldə etdikləri əsərləri qeyd etməklə onun yaradıcılığının zənginliyini müəyyən etmək olar. Məsələn:

**- 1935**-ci ildə **Hümmət Əlizadə** tərəfindən toplanmış "Aşıqlar" toplusunun 1-ci cildinin 155-193-cü səhifələrində Molla Cüməyə məxsus, müxtəlif janrlarda yazılmış **30 (otuz)** şeiri ilk dəfə olaraq nəşr edilmişdir [5, s.155-193].

- **1935**-ci ildə **Salman Mümtaz** tərəfindən toplanmış "El şairləri" toplusunun 1-ci hissəsinin 38-39-cu səhifələrində Molla Cüməyə məxsus **"Sərçələr"** şeiri nəşr edilmişdir[13, s.38-39].

- **1936**-cı ildə **Hümmət Əlizadə** tərəfindən toplanmış "Aşıqlar" toplusunun 2-ci cildinin 155-193-cü səhifələrində Molla Cüməyə məxsus, müxtəlif janrlarda yazılmış **80 (səksən)** şeiri nəşr edilmişdir [6, s.155-193].

- 1957-ci ildə **S.Axundov** tərəfindən toplanmış "Aşıqlar" toplusunun 74-76-cı səhifələrində Molla Cüməyə məxsus, müxtəlif janrlarda yazılmış **6 (altı)** şeiri nəşr edilmişdir [4, s.159-221];

- 1960-cı ildə **S.Axundov** tərəfindən toplanmış "Aşıqlar" toplusunun 3-cü hissəsinin 48-51-ci səhifələrində Molla Cüməyə məxsus **9 (doqquz)** qoşma nəşr edilmişdir [4, s.159-221];

- 1964-cü ildə **Əhliman Axundov** tərəfindən toplanmış, Azərbaycan Dövlət Nəşriyyatı tərəfindən Bakıda nəşr edilmiş "Telli saz ustaları" toplusunun 90-95-ci səhifələrində Molla Cüməyə məxsus **5 (beş)** müxtəlif şeir nəşrlər edilmişdir [13, s.30];

- **Ərtoğrol Cavidin** 12 cildlik külliyyatının 9-cu cildi bütövlükdə Molla Cümə yaradıcılığına həsr edilmişdir. Burada ilk dəfə olaraq şairin müxtəlif forma və janrlarda yazılmış çox sayda əsərləri toplanmışdır. Onlardan: həcvlər-3, gözəlləmələr-50, digər əsərləri-69, dastan-3, deyişmə-3, gözəllər haqqında – 12, dodaqdəyməz-1, müxtəlif şeirlər-5. Ümumilikdə şairin 146 əsəri bu cilddə nəşr edilmişdir. Göründüyü kimi, Molla Cümə əsərləri ilk dəfə 1930-1940-cı illərdə Ərtoğrol Cavid tərəfindən toplanmışdır [7].

- 1980-cı illərdə **Paşa Əfəndiyev** və **Şərif İdrisov** tərəfindən Molla Cüməyə məxsus əsərlər toplanaraq 1983-cü ildə Bakı şəhərində “Yazıçı” nəşriyyatında çap edilmişdir. Bu kitabda: 25 gəraylı, 74 qoşma, 31 divani, 20 müxəmməs, 18 müxtəlif şeir, 21 müxəmməs, müsəddəs, mürəbbe, tərcibənd, zəncirləmə, dübeyti, misal, deyişmə nəşr edilmişdir. Ümumilikdə kitabda 186 əsər nəşr edilmişdir [14];

- **Paşa Əfəndiyev** tərəfindən toplanmış **“Molla Cümə. Əsərləri”** adlı kitab 1995-ci ildə Bakıda “Maarif” nəşriyyatında çap edilmişdir. Burada şairin müxtəlif janrlarda (bayatı, qoşma, divani, müxəmməs, təcnis, təxmis, deyişmə, dastan və s.) yazılmış 573 adda əsəri yer almışdır. Bu kitab Molla Cümə yaradıcılığını əks etdirən ən böyük topludur [10];

- Əməkdar elm xadimi, professor **Məhərrəm Qasımlı və filoloq Elman Əzizovun** 2016-cı ildə nəşr etdirdikləri “Molla Cümə. İsmi Pünhan” adlı kitabda şairin 160 şeiri nəşr edilmişdir [15];

- **Mövlud Yarəhmədov**. “Molla Cümə. Seçilmiş əsərləri” kitabında şairin müxtəlif janrlarda yazılmış 347 əsəri yer almışdır [11];

- Molla Cümənin Əlyazmalar İnstitunda saxlanılan 250 səhifəlik əlyazma nüsxəsində şairin 473 şeiri yer almışdır. Bu nüsxə Б-1937/3562 11921-124 səhifə olmaqla qeydiyyata alınmışdır.

Tərəfimizdən aparılan tədqiqat zamanı Molla Cümənin nəşr edilməmiş daha 13 şeiri gürcü aşıq Konstantin Muradxanaşvilinin əlyazma dəftərində aşkar edilmişdir.

Tərəfimizdən aparılan tədqiqat zamanı Molla Cümənin daha 4 əlyazma dəftəri aşkar edilmişdir. Burada şairin 921 şeirinin yer aldığı müəyyən edilmişdir.

Molla Cümə **dastan** yaradıcılığına xüsusi yer ayırmışdır. Onun indiyədək nəşr edilmiş **“Cəlali Məhəmməd və Tavat xanım”, “Baxış bəy və Leyla xanım”, “Həsən əminin öküzü”, “Sayat bəy və Sayalı xanım”** dastanlarının adlarını çəkmək olar. Molla Cümənin ədəbi irsinin tədqiqi zamanı tərəfimizdən bir sıra yeni dastanları aşkar edilmişdir. Əldə etdiyimiz **y**eni **“Molla Cümənin İsmi Pünhanla son vidası”, “Mahmud və Nigar xanım”, “Şah Səməd və Nigar xanım”, “Zinhar və Mahəfrus”, “Şah baba və Pəri xanım”** dastanlarını göstərə bilərik. Adları sadalanan dastanlara nəzər salsaq, Molla Cümənin şeiriyyatda olduğu kimi, dastan yaradıcılığında da kifayət qədər fəal olduğunu görərik [8, s.55-60].

Bunlar şairin əsərlərinin nəşrinə və elmi tədqiqinə həsr olunmuş dəyərli mənbələrdir.

Molla Cümə, həm də aşıqlıq etdiyindən yaratdığı əsərlərdə qoşma, təcnis, gəraylı, bayatı və başqa şeir formalarına üstünlük vermiş, həm də maraqlı mövzularda xalq tərəfindən sevilən məlum on dastan yaratmışdır. Hesab edirik ki, şairin yaradıcılığının bu istiqamətə yönəlməsinin səbəblərindən biri tarixilikdirsə, digəri də onun özünün ustad aşıq olması, el şənliklərində aşıqlıq etməsi olmuşdur.

Şair dövrünün qadağalarına baxmayaraq, mövcud rejimi qəbul edə bilməmiş, savadlı birisi olsa da “dərvişəm, çoxdur təşvişim” deyərək dərvişanə həyat tərzi sürməyə üstünlük vermiş, fərqli əsərlərdə zəmanəylə barışmazlığını müxtəlif formada gələcək nəsillərə ötürə bilmişdir.

Şairin yaradıcılığı ilə bağlı tərəfimizdən aparılan tədqiqat zamanı yeni bir divanı aşkar edilərək tədqiqata cəlb edilmişdir. Burada şairin fərqli formada 921 şeirinin olduğu müəyyən edilmişdir. Şeirlərdən 295-nin qeyri-mətbu olduğu müəyyənləşdirilmişdir. Bundan əlavə, şairin mətbu və qeyri-mətbu əsərləri bir araya gətirilərək tədqiq edilmiş və ümumilikdə 1145 şeir və dastanlarının olduğu ilk dəfə tərəfimizdən müəyyən edilmişdir. Bütün bu faktlar şairin zəngin ədəbi irsinin olduğuna dəlalət edir.

Onun yaratdığı əsərlər məzmun baxımından da zəngin və mənalıdır. Bakıda keçirilən birinci beynəlxalq aşıq festivalına məhz Molla Cümənin sözlər ilə açılış edilmişdir. Məsələn, "Aşıqlıq" rədifli qoşmasında şair yazır:

*Aşıqlıq Adəmdən icad olubdur,*
*Ol Adəm atanın nəvəsiyəm mən.*
*Nə qədər dünyaya aşıq gəlibdir,*
*Külli aşıqların anasıyam mən. ...*

*Aşıq anasıyam, şairlər kökü,*
*Gəzərəm dünyada divanə təki...* [10, s.167]

Növbəti bənddə isə şair  dərvişanə həyat tərzi sürdüyünə işarə edir:

*Aşnayam, gedərəm doğru yolinən,*
*Bülbüləm söhbətim olar gülinən,*
*Danışsalar yetmiş iki dilinən,*
*Ol qədər arifəm, qanasıyam mən.*

*Qanıram ustaddan almışam dərsi,*
*Oxumuşam ərəb, türk ilə farsi,*
*Fikrim seyr eyləyir ərşinən-kürsi,*
*Dərin kitabların mənasıyam mən ...* [10, s.167]

Göründüyü kimi, şair yaratdığı əsərləri sadə dildə və oxunaqlı, eyni zamanda şifahi dildə sadə xalqın yaddaşında qala biləcək tərzdə yarada bilmişdir. Bütün bunlar şairin dərin elmi biliklərə malik olmasından xəbər verir.

Başqa bir qoşmasında şair yazır:

*Beş gün ömrüm bir kefinən sürmədim,*
*Qarğış edib Şəkistana ağlaram.*
*Bu yıxıqda bir dərd əhli görmədim*
*Dad çəkərək Dağıstana ağlaram.*

*Molla Cümə eşqə oldu giriftar,*
*Hicran artdı dünya ilə barabar,*
*Yəqin bilsəm dərdə çarə edən var,*
*Üz tutaraq Hindistana ağlaram.*

*Heç kim deməz namərd İsmi Pünhana,*
*Aşiqini etmə dəli divana,*
*Gah yönümü çevirirəm Şirvana,*
*Gah üz tutub Gürcüstana ağlaram.* [10, s.60]

Göründüyü kimi, şair burada Azərbaycanın tarixi sərhədləri və dövlətçiliyinin əhatə dairəsinə işarə edir. Qeyriləri (burada şair yadelliləri nəzərdə tutur) Azərbaycanı idarə etdiyindən onları qarğışlayır. Bununla şair həm də yadellilər tərəfindən Azərbaycanın işğal edildiyinə işarə edir.

Molla Cüməni tədqiqatçılar bəzən məhəbbət şairi, çoxları isə "İsmi Pünhan" adlandırırlar. Şairin bu qəbildən olan çox sayda şeirlərini göstərə bilərik ki, bunlar da İsmi Pünhana həsr edilmişdir. Şairin "Küsmüsən" rədifli şeirində biz bunları görə bilərik. Şeirin sözlərinə mahnı qoşulmuş, həm də müasir el şənliklərində ən çox ifa edilən mahnılardan biridir.

Məsələn:

*İsmi Pünhan, niyə məndən küsübsən,*
*Dost mehriban ya bir olar, ya iki.*
*Bir gün ölsəm, hamı deyər, hayıfdır,*
*Dərdim qanan ya bir olar, ya iki...* [4, s.49]

Molla Cümə gəraylılarında da eynilə İsmi Pünhana müraciət edir, onu ən yüksək zirvəyə layiq görür:

Yaxud başqa bir gəraylısında:

*İsmi Pünhan yazılıbdır*
*İsmi Əzəm qabağında,*
*Qəndi-nəbat əzilibdir*
*Qız, sənin bal dodağında...* [10, s.33]

*İsmi Pünhan, söylə görüm,*
*Nə kələk var o başında.*
*Hərdən səni xəcil görüb,*
*Batır yasa sirdaşın da...* [10,s.28]

Molla Cümənin divaniləri fərqli, məzmun və mənaca seçilən, tarixiliyi özündə əks etdirəndir. Buna misal olaraq "Dustağıdır" rədifli divanını göstərə bilərik:

*Bülbül ağlar öz gülünə, qızılgül dustağıdır,*
*Ta ölüncə fəğan eylər, əyyami-il dustağıdır.*
*Fərhad, Məcnun, Kərəm ki var, eşq əhlinin gözüdür,*
*Ondan qalan xilaf eylər, fitnə-fel dustağıdır.* [10, s.231].

Molla Cümə yaradıcılığında eləcə də bayatı, divani, müxəmməs, təcnis, təxmis, deyişmə, həcvlər, gözəlləmələr, dodaqdəyməz və bu qəbildən yazılmış digər əsərləri xüsusilə diqqəti cəlb edir. Bundan başqa, şairin gəraylı, divani, müxəmməs, müsəddəs, mürəbbe, təcribənd, zəncirləmə, dübeyti, misal, deyişmə və sair formada yaratdığı şeirlər onun yaradıcılığının zəngin göstəricisidir.

Molla Cümənin şeirlərindən çoxu Azərbaycan dastanlarına da nüfuz edib, bu dastanların tərkib hissəsinə çevrilmişdir [11, s.4]. Şairin yaratdığı dastanlar məzmun və məna baxımından fərqli xüsusiyyətlərə malikdir.

Məsələn, "Cəlali Məhəmməd və Tavat xanımın nağılı" dastanı məzmun etbarı ilə məhəbbət dastanı olaraq iki qonşu xalqın azərbaycanlılarla gürcülərin bir-birinə bəslədiyi dostluq münasibətini əks etdirir. Dastanın əsas süjet xətti belədir: gürcü knyazı təbrizli tacir Bəzirganı qonaq çağırır. Tacir qonaq gələrkən çoxlu qiymətli hədiyyələr gətirir. Adətə görə, gürcü knyazı ailəsi ilə birlikdə hədiyyələrə baxırlar. Görürlər ki, Bəzirgan knyazın bütün var-dövlətindən daha çox qiymətli hədiyyələr gətirib. Bunun müqabilində knyaz çox götür-qoy etdikdən sonra Bəzirganın xəbəri olmadan qızı Tavat xanımı onun oğlu Cəlali Məhəmmədə ərə vermək məqsədilə onlara göndərir. Bəzirgan bu hadisədən ancaq yolda xəbər tutur. O, hadisədən xəbər tutan kimi Təbrizə toy hazırlığı görmək üçün xəbər göndərir. Onlar Təbrizə çatırlar. Toy izdivacı baş tutur. Ancaq Cəlali Məhəmməd yerli adətlərə görə xristian qızı ilə ailə həyatı yaşamağı özünə yasaq sayır. Onlar yeddi il bir yerdə olsalar da, ailə həyatı yaşamırlar. Bütün bunlardan bezən Tavat xanım qaçıb evlərinə qayıdır və hadisəni olduğu kimi knyaza danışır. Knyaz Tavat xanıma əvvəlki nişanlısı ilə toy mərasimi düzənləyir. Cəlali Məhəmməd yerli adət-ənənələr, din təəssübkeşi qarıların iradəsinə zidd olaraq ailəsini qaytarmaq üçün Tavat xanımın arxasınca yollanır. Böyük çətinliklərdən sonra Cəlali Məhəmməd Tavat xanımı geri qaytara bilir.

Gürcü qızı Tavat xanım azərbaycanlı Bəzirganın, onun oğlu Cəlali Məhəmmədin və ailəsinin heç bir şeydə günahı olmadığını, sadiq, qayğıkeş olduqlarını başa düşür. Cəlali Məhəmməd Tavat xanımla birlikdə şər qüvvələri məğlub edir və xoşbəxt həyatlarını yaşamağa qərar verirlər [11.s.54-60; 10.s.527-619; 9.s.207-223].

**"Həsən əminin öküzü"** dastanı hər bəndi 4 misra olmaqla 13 bəndlik ustadnamə və 24 bəndlik qoşma və boylardan *(təhkiyə hissəsindən)* ibarətdir.

Dastanın əsas süjet xətti belədir: Həsən əmi nə qədər aciz, korafəhmdirsə, qadını bir o qədər diribaş, irəlini görən, praktikdir. Qadındakı aktivlik simpatiya, kişidəki passivlik yumorla verilib. Həsən əmi çoxlu pul verərək əvəzində arıq, xəstə öküz alır, pulun dəyərini anlamayıb yalnız sayını söyləyir (on pul deyərək durur), başqa sözlə, çox sadəlövh insandır. Dastanda baş verən hadisələrin ideyası da budur ki, həyatda praktik olmaq lazımdır. Həsən əmi xəstə öküzlə aldadıldığını bildikdən sonra onu bir aya bəsləyib, kökəldəcəyini, öküz öldükdən sonra isə dərisini soyub satacağını

düşünür. Bu isə onun xarakterсə nikbin olduğunu göstərir. Heç bir şey onu həyatdan küsdürmür. Bu yumoristik nağıl-dastanın gülüş obyekti Həsən əmidir. Onun gülüş obyekti olan tərəflərini göstərmək üçün əks xarakter olan qadın surəti verilmişdir. O, aktivdir. Ehtiyacı ödəmək, inək almaq üçün o, qənaətlə pul yığır, ərinin tərsliyini pisləyir. Həsən əminin qardaşı oğlu da iş bacarmayan, sadəlövh əmisini tənqid edir [8, s.54-60].

Onun dastanlarında ölkəmizin ərazisində Azərbaycan xalqı ilə bərabər yaşayan digər xalqların mədəniyyətlərinə hörmətlə yanaşılmış, bu əsərlərdə baş verən hadisələri böyük ustalıqla, sadə, axıcı dildə təsvir edilmişdir.

Təəssüflə qeyd etmək istəyirik ki, Molla Cümənin dastanlarının hamısı dövrümüzə qədər gəlib çıxmamışdır. Molla Cümənin dastan yaradıcılığı araşdırılarkən öncə onun **nəşr edilmiş dörd** dastanını nəzərdən keçirmək istərdik. Bunlar **“Cəlali Məhəmməd və Tavat xanım”, “Baxış bəy və Leyla xanım”, “Həsən əminin öküzü”, “Sayat bəy və Sayalı xanım”** dastanlarıdır [8, s.54-60].

**“Molla Cümənin İsmi-Pünhanla son vidası”** dastanı tam həcmdə bizə çatmasa da əlimizdə olan parçadan əsərin əsas süjet xəttini müəyyən etmək mümkündür. Hadisələr müəllifin doğma vətəni Şəkinin Göynük mahalının Layisqi kəndində baş verir.

Əsərdəki hadisələrin qısa məzmunu belədir: Molla Cümənin sevgilisinin vaxtsız ölümü onu üzgün hala salır, hətta o ətrafında baş verən hadisələri belə görmür. Bundan sonra o, sevgilisini **“İsmi Pünhan”** adlandırır, onun dərdindən dəli-divanə olur. Molla Cümə sevgilisinin vaxtsız ölümü səbəbindən ilk məhəbbətinə qovuşa bilmir. Həyatındakı boşluğu doldurmağın çıxış yolunu dərvişlikdə görür. Əsər təsirli şeirlərlə zəngindir [8, s.54-60]. Məsələn:

*İsmi Pünhan köçdü fəna dünyadan,*
*Qarışdı torpağa göz hayıf oldu.*
*Xudanın tədbiri beləymiş bizə,*
*Soldu yanaqları, üz hayıf oldu...* [10, s.188]

**“Mahmud və Nigar xanım”** dastanı şairin məzmunca zəngin dastanlarından biridir. Əsərin əsas süjet xəttini Mahmudla Nigar xanımın sevgisi təşkil edir.

Hadisələr İsfahan şəhərində Xoca Vahid adlı bir kişi və onun Mahmud adlı bir oğlunun ətrafında cərəyan edir. Mahmud böyüyüb həddi-buluğa çatanda İstanbullu Güldüm padşahın qızı Nigar xanımı yuxuda görüb aşiq olur. Bu hadisədən sonra Mahmudun əhvalı dəyişir və daim fikirli gəzir. Valideynlər oğullarının belə fikirli olmasının səbəbini soruşurlar. Mahmud valideynlərinə aşiq olduğu və sevgilisinin İstanbulda yaşadığını bildirir. Valideynləri Mahmudun bu hala düşməsinin səbəbini bildikdən sonra oğullarına kömək etmək üçün onun İstanbula getməyinə icazə verirlər. Mahmud bu şəhərdə bir çox çətinliklərlə rastlaşır. Nigar onu bu çətinliklərdən qurtarmağa çalışsa da, qızın atası Güldüm Paşa bu izdivaca mane olur. Paşa Mahmudun boynunu vurmağı əmr edir. Nigar bu dəfə də Mahmudun xilası üçün yollar axtarır və tapır. Nigar xanım adamlarına Mahmudu çimizdirib yanına gətirməyi əmr edir. Hər iki sevgili görüşərkən bir-birinə sarmaşırlar. Nigar xanım Mahmuda bir qırağı naxışlı yaylıq bağışlayır. Əhvalatdan xəbər tutan Güldüm Paşa əmr edir ki, Nigarı Mahmudla bir sandığa qoyub dəryaya atsınlar. Paşanın əmrinə görə Nigar ilə Mahmudu sandığa qoyub dəryaya atırlar. Dənizin kənarında bihuş halda qoyulan Mahmudun dostu Qənbər özünə gəldikdən sonra sandığın üstündə oturur. Sandıq su ilə gedərək İstanbulda Şıx Nəsir adlı bir şəxsin bağının bərəsinin ağzında durur. Bağban suyun kəsildiyini görərək bayıra çıxır. Görür ki, bir sandıq bərənin deşiyini kəsib, üstündə də bir nəfər oturmuşdur. Sandığı bağa gətirib ağzını açdıqda görür ki, bu sandıqda iki cavan qol-boyun olub tər tökə-tökə yatırlar.

Bağban Mahmudu, Nigarı və Qənbəri Şıx Nəsirin yanına aparır. Şıx Nəsir Qənbərdən halı-qəziyyəni öyrənib qırx gün, qırx gecə toy çaldırır, Nigarla Mahmudu evləndirir. Toydan sonra Şıx

Nəsir Mahmuda deyir ki, oğul, budur, siz muradınıza çatdınız. İndi istəsəniz burada qalın, istəsəniz ata-ananızın yanına gedin, ixtiyar sizindir.

Mahmud Şıx Nəsirlə halal-himmət edib Nigarla vətəninə doğru rəvan olur. Bunlar bir şəhərə çatıb görürlər ki, bu şəhərdə padşah ölmüşdür. Yenidən padşah seçmək üçün isə adətə görə quş uçurdurlar. Quş havada dövrə vurub gəlib kimin üstünə qonarsa, o da padşah seçilərmiş. Onların da Padşah seçmək üçün uçurduqları quş Mahmudun başına qonur. Quş uçuranlar quşun Mahmudun başına qonmasını hesaba almırlar və aparıb onu bir xaraba dəyirmana salırlar. Quşu təkrar uçurdurlar. Quş yenə də uçub dəyirmanın başına qonur. Şəhərin böyükləri deyirlər ki, yəqin bu adam nəcibzadədir. Belə olmasa quş nahaqdan onun başına qonmaz. Ona görə Mahmudu bu vilayətin şahı seçirlər [8, s.54-60].

Molla Cümə yaradıcılığı mütəmadi olaraq elm adamlarının tədqiqat obyekti olaraq qalmaqdadır. Eyni zamanda ustad aşığın yaradıcılığı şifahi xalq ədəbiyyatı kontekstindən də öyrənilir. Müasir nəsil aşıq yaradıcılığında ustad aşıq Cümənin əsərlərinin öyrənilməsi ilə bərabər, yeni nəsil aşıqlar tərəfindən də onun fəaliyyəti yüksək səviyyədə qiymətləndirilməkdədir.

Molla Cümənin gürcü, avar, ləzgi, ağul, rutul, tabasaran və Dağıstan ərazisində yaşayan Azərbaycan xalqı arasında geniş şöhrət qazanmış poeziya inciləri göstərir ki, onun poeziyası bütün qeyd etdiyimiz xalqların dərd və kədərlərinə həmdəm, sevinc və fərəhlərinə yoldaş olmuşdur. Məhz buna görə idi ki, şairin müasiri olan Qaraçəmirli Qasım (1866-1919) Molla Cümənin adını böyük hörmət və məhəbbətlə Sayad Nova, Aşıq Ələsgər, Aşıq Musa, Məmmədhüseyn, Pənah, Çoban, Hüseyn kimi sənətkarlarla qoşa çəkərək demişdir:

*Aşıq Sayad Nova, Aşıq Ələsgər,*
*Aşıq Musa, Alı, Məmməd Hüseyn var,*
*Pənah, Molla Cümə, Çoban, müxtəsər,*
*Söyün kimi elmə dolan görmədim.* [11, s.3]

Molla Cümənin şifahi xalq şeirinin müxtəlif növlərində yaratdığı söz inciləri müasiri olan Azərbaycan sənətkarlarının bir çoxu tərəfindən çalıb oxunduğu kimi, onun yaxın dostu olan Dağıstan aşıqlarının da dillər əzbəri olmuşdur. Katruxlu İsgəndər, Hümeydi Əhməd və başqaları həmişə Cümənin söz incilərindən çalıb çağırmışlar. Dağıstanın Əməkdar İncəsənət xadimi Aşıq Soltan isə Molla Cümə haqqında yazdığı bir şeirində deyir:

*Sözün əzbərimdir gənclik yaşımdan,*
*Aşıqlıqda ustad sanıram səni,*
*Atam Hacı sənin dostun olubdur,*
*Atamtək həmişə anıram səni.*

*Bir vaxt Dağıstana gələrək qonaq,*
*Atamla demişdin məclis quraraq,*
*Katruxda gəzdiyin o güllü yaylaq,*
*İndi də yad edib biaram səni.*

*Soltan dərdli-dərdli yas tutar sənə,*
*Adın vüqar idi doğma vətənə,*
*Bir namərd zərbəsi dəyib sinənə,*
*Qoymadı almağa murad, kam səni.* [11, s.4]

## Nəticə / *Conclusion*

Molla Cümə əsərlərinin janr xüsusiyyətlərinin tədqiqi, onun poeziyasının müxtəlifliyi ilə tanış olmağa imkan yaradır. O, xalq tərəfindən qəbul edilən çox zəngin, müxtəlif məzmunlu, oxunaqlı şeir və dastanlar yarada bilmişdir. Onlardan: həcvlər, gözəlləmələr, dastan, deyişmə, dodaqdəyməz, gəraylı, qoşma, divani, müxəmməs, müsəddəs, mürəbbe, tərcibənd, zəncirləmə, dübeyti, misal,

bayatı, təcnis, təxmis və başqalarını göstərə bilərik. Forma və janr etibarilə Molla Cümə əsərlərinin bir sıra fərqli xüsusiyyətlərini görə bilərik. Şairin eyni şeirlərinin müxtəlif variantlarının mövcudluğu həm də onların tekstoloji tədqiqini şərtləndirən amillərdəndir.

Məqalənin əsas mətn hissəsində Molla Cümə yaradıcılığının təhlilinə geniş yer ayrılmışdır. Burada şairin yaradıcılığındakı janr xüsusiyyətlərinə aydınlıq gətirilir.

Məlum olduğu kimi, aşıq ədəbiyyatı hər zaman xalqın həyatı ilə sıx bağlı olmuş, dövr keçdikcə zənginləşmiş və kamilləşmişdir. Bu sahədə şairin yaradıcılığını hərtərəfli öyrənmək, onun zəngin repertuarını araşdırmaq, hesab edirik ki, aşıq ədəbiyyatının daha geniş formada öyrənilməsi baxımından bu sahəni tədqiq edənlər üçün zəngin mənbə rolunu oynayacaqdır.

Şairin regional-mədəni və sosial mühitinin özünəməxsusluqları baxımından xüsusilə diqqəti cəlb edir.

Yüzilliklər keçdikcə nəsildən-nəslə ötürülərək günümüzədək gəlib çıxan bu sənət xalqın ruhunu, zövqünü oxşayır, dövrün ictimai-siyasi ab-havasını özündə əks etdirir. Xalqımızın milli duyum və düşüncə tərzini, saz və söz vəhdətini özündə yaşadan, klassik ənənəyə bağlı Aşıq Cümə əsərlərinin məzmun etibarilə həyati əhəmiyyəti, tarixiliyi, cilalanıb təkmilləşən zəngin ənənəyə malik olması gələcək nəsillər üçün örnək ola bilər.

Hesab edirik ki, məqalədə misal gətirdiyimiz Molla Cümə yaradıcılığının janr xüsusiyyətləri gələcək tədqiqatçılar üçün örnək rolunu oynaya bilər.

## Ədəbiyyat / *References*


1. Adişirinov, K.F. Molla Cümənin ömür yoluna yeni baxış və Şəki folklor mühitində aşıq sənəti ənənələri (1901-1950-ci illər) // – Bakı: İpək Yolu, 2018, №3.
2. Allahmanlı, M.Q. Azərbaycanın Qərb bölgəsinin mənəvi mədəniyyətindən / M.Q. Allahmanlı. – Bakı: Nurlan, 2011. – 173 s.
3. Allahmanlı, M.Q. Ozan, aşıq və aşiq / M.Q. Allahmanlı. – Bakı: Ağrıdağ, 1997. – 158 s.
4. Axundov, S. Azərbaycan SSR Mədəniyyət Nazirliyi Respublika Xalq Yaradıcılığı Evi/üçüncü çap. – Bakı, 1966.
5. Aşıqlar: [2 cilddə] / topl. H. Əlizadə. – Bakı: Azərnəşr, c.1, 1935. – 341 s.
6. Aşıqlar: [2 cilddə] / topl. H.Əlizadə. – Bakı: Azərnəşr, c.2, 1936. – 437 s.
7. Azərbaycanın qeyri-maddi mədəniyyət abidələri və Ərtoğrol Cavid: [12 cilddə] / – Bakı: AMEA, Hüseyn Cavidin Ev Muzeyi ; layihənin müəl. və tərt. G.Babaxanlı; fars dil. olan mətn. tərc. və red. T.Kərimli, – c. 9, 2011. – 286 s.
8. Bəkirov, N.K. Molla Cümənin dastanları // – Bakı: AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu. Elmi əsərlər. – 2019. №2 (9), iyul-dekabr.
9. Bəkirov, N.K. Azərbaycan-gürcü ədəbi əlaqələri və Molla Cümə yaradıcılığı / N.K. Bəkirov. – Bakı: Nafta Press, 2018. – 226 s.
10. Əfəndiyev, P.Ş. Molla Cümə. Əsərləri / Ş. Əfəndiyev. – Bakı: Şərq-Qərb, 2006.
11. Molla Cümə. Seçilmiş əsərləri: [2 cilddə] / tərt.: Yarəhmədov, M. – Bakı: Örnək, c.1, 2000. – 227 s.
12. El şairləri: [2 cilddə] / topl.: Mümtaz, S. – Bakı: Azərnəşr Bədii ədəbiyyat şöbəsi, c.1, 1935. – 39 s.
13. Telli saz/tərtibçi: Axundov, Ə.Ə. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1964. – 30 s.
14. Molla Cümə. Seçilmiş əsərləri/tərt.: Əfəndiyev, P.Ş. İdrisov, Ş. – Bakı: Yazıçı, 1983. – 228 s.
15. Molla Cümə. İsmi Pünhan /tərt.ed.: M.Qasımlı, E.Əzizov.– Bakı: Azərbaycan Tarixçiləri İctimai Birliyi, 2016. – 227 s.

# Жанровые особенности произведений Молла Джумы

**Новруз Бакиров**
Доктор философии по филологии
Институт рукописей имени Мухаммада Физули НАНА
E-mail: bekirov.novruz@mail.ru

**Резюме.** Изучение жанра и особенностей творчества Моллы Джумы позволяет познакомиться с многообразием его поэзии. Ему удалось создать очень богатые, разнообразные по содержанию, читабельные стихи и былины, принятые народом. Среди них можно указать: сатиры, гёзеллеме, деищме, додагдеймез, гарайлы, гошма, дивани, мухаммас, мусаддас, мурабба, тарджибанд, занджирлама, дубаиты, мисал, баяты, таджнис, тахмис и другие. По форме и жанру мы видим ряд различных особенностей произведений Моллы Джумы. Существование разных версий одних и тех же стихотворений поэта также является одним из факторов, определяющих их текстологическое изучение.
В основной текстовой части статьи большое место отведено анализу творчества Моллы Джумы. Здесь уточняются жанры и особенности творчества поэта. В творчестве художника также видна его влюбленность.
Насколько известно, любовная литература всегда была тесно связана с жизнью народа, обогащалась и совершенствовалась с течением времени. Мы полагаем, что всестороннее изучение творчества поэта в этой области и знакомство с его богатым репертуаром сыграет роль богатого источника для тех, кто изучает ашигскую литературу в более широком виде.
Особое внимание обращается на особенности регионально-культурной и социальной среды поэта.
На протяжении веков это искусство, передающееся из поколения в поколение, дошло до наших дней, оно отражает дух и вкус народа, отражает социальную и политическую атмосферу того времени. Творения Джумы, олицетворяющие национальное чувство и образ мышления нашего народа, единство музыки и слова, влюбленные в классическую традицию, жизненное значение своих произведений по содержанию, истории, богатой традиции, отшлифованной и улучшенные могут стать примером для будущих поколений.
Мы полагаем, что жанр и особенности творчества Моллы Джумы, которые мы привели в статье в качестве примера, могут послужить примером для будущих исследователей.
**Ключевые слова:** Молла Джума, жанрово-художественная особенность, куплет, сага, гарайлы